# Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramının təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasında demoqrafik proseslərin ölkənin sosial-iqtisadi strategiyasına uyğun inkişafına nail olmaq, əhalinin orta ömür yaşını artırmaq, ana və uşaqların sağlamlığını, ailələrin möhkəmləndirilməsini və miqrasiyanın tənzimlənməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı» təsdiq edilsin.

2. Müəyyən edilsin ki, Dövlət Proqramının icrasının əlaqələndirilməsini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamla təsdiq olunan Dövlət Proqramının icrasını təmin etmək üçün zəruri tədbirlər həyata keçirsin.

4. Bu sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV.***

***Bakı şəhəri, 11 noyabr 2004-cü il.***

***№ 517.***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (12 noyabr 2004-cü il, № 264) («LegalActs» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 noyabr 2004-cü il, № 11, maddə 940) («LegalActs» LLC).***

***18 iyul 2005-ci il tarixli, 260 nömrəli; 27 sentyabr 2006-cı il tarixli, 466 nömrəli; 2 fevral 2007-ci il tarixli, 521 nömrəli; 6 mart 2008-ci il tarixli, 719 nömrəli; 14 aprel 2009-cu il tarixli, 81 nömrəli; 10 fevral 2010-cu il tarixli, 216 nömrəli; 15 fevral 2011-ci il tarixli, 381 nömrəli; 14 may 2014-cü il tarixli, 164 nömrəli; 16 avqust 2016-cı il tarixli; 6 sentyabr 2016-cı il tarixli, 1027 nömrəli Fərmanlara əsasən əlavələr və dəyişikliklərlə («LegalActs» LLC).***

## Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət proqramının çərçivəsində həyata keçiriləcək

## Tədbirlər

| Sıra №-si | Tədbirin adı | İcraçılar | İcra müddəti (illər üzrə) | Gözlənilən nəticə |
|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** |
| ***1. Doğum səviyyəsinin optimallaşdırılması*** | | | | |
| **Respublika üçün optimal olan tam ailə tipinin formalaşdırılması** | | | | |
| 1.1 | Stasionarlarda, qadın məsləhətxanalarında, müvafiq profilli müəssisələrdə, təhsil müəssisələrində nikah və ailə, hamiləlik, ailədə uşaqların optimal sayı, yeni doğulmuş uşaqlara qulluq, hamiləliyin profilaktikası və optimallaşdırılması tələb olunan məsələlər üzrə mütəmadi olaraq mühazirələrin və söhbətlərin təşkil edilməsi | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (bundan sonra — Səhiyyə Nazirliyi), Azərbaycan Respublikasının Təhsil Nazirliyi (bundan sonra — Təhsil Nazirliyi) | mütəmadi | Qadınların səhhətinin yaxşılaşdırılması, süni uşaqsalmaların səviyyəsinin azaldılması və intergenetik intervalların çoxaldılması |
| 1.2. | Ailə planlaşdırılması xidmətinin inkişafı | Səhiyyə Nazirliyi | 2004 — 2008 | Ailə möhkəmliyinin yüksəldilməsi, ailə-nikah münasibətlərinin səmərəliləşdirilməsi |
| 1.3. | Bakı şəhərinin müvafiq tibb müəssisələrində androloji xidmətlərin yaradılması | Səhiyyə Nazirliyi | 2004 — 2008 | Kişilərdə sonsuzluğun profilaktikası və müalicəsi |
| 1.5 | Bakı şəhərində Mamalıq və ginekologiya ETİ nəzdində süni inseminizasiya laboratoriyasının təşkil edilməsi | Səhiyyə Nazirliyi | 2005 | Doğum sayı səviyyəsinin tənzimlənməsi və ailənin möhkəmləndirilməsi |
| 1.6 | Doğum və ölüm qeydiyyatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə Azərbaycan | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | 2004 — 2005 | Doğum və ölüm qeydiyyatı vəziyyətinin yaxşılaşdırılması, |

| | | | | |
|---|---|---|---|---|
| | Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi arasında qlobal informasiya şəbəkəsinin yaradılması | (bundan sonra — Statistika Komitəsi), Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | | qeydiyyatdan kənarda qalma hallarının minimuma endirilməsi |
| ***2. Analıq və uşaqlılığın mühafizəsi*** | | | | |
| **2.1 Dölün antenatal mühafizəsi, qadın orqanizminin reproduktiv funksiyasının pozulmasının profilaktikası** | | | | |
| 2.1 | Cinsi inkişafdakı kənara çıxmaların vaxtında aşkarlanması, sağlamlıq vəziyyətinə görə “risk qruplarının” (sonradan müalicə etmək şərtilə) ayrılması məqsədilə poliklinikaların yeniyetmə kabinetlərində yeniyetmə qızların dispanser müayinəsi ilə əhatə olunmasının təmin edilməsi | Səhiyyə Nazirliyi | daima | Ginekoloji xəstəliklərin profilaktikası, sağlam analığın formalaşması |
| 2.2 | *Təhsil müəssisələrində* cinsi həyat haqqında məlumat kompaniyasının həyata keçirilməsi | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi | daima | Ginekoloji xəstəliklərin profilaktikası, sağlam analığın formalaşması |
| 2.3 | Qadın məsləhətxanaları və mərkəzi rayon xəstəxanaları tərkibində hamiləliyin və ekstragenital xəstəliklərin ağır olmayan patologiya formaları olan qadınlar üçün müvafiq gündüz stasionarlarının təşkil edilməsi | Səhiyyə Nazirliyi | daima | Hamiləliyin və doğumun uğurla başa çatdırılması və ana ölümünün aradan qaldırılması |
| 2.4 | Ana və uşaq patologiyasının (düşüklərin, hamiləliyin ikinci yarısının toksikozunun, ekstragenital patologiyanın və s.) yüksək riski olan hamilə | Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2004 — 2008 | Hamiləliyin və doğumun uğurla başa çatdırılması və ana ölümünün aradan qaldırılması |

| | | | | |
|---|---|---|---|---|
| | qadınların hospitalizasiyası üçün respublikanın ayrı-ayrı regionlarında müvafiq tibb müəssisələrində perinatal xidmətin təşkil edilməsi | | | |
| 2.5 | Hamilə qadınların irsi patologiyasının aşkarlanması üzrə kompleks skrininq proqramının işlənib hazırlanması və tətbiq edilməsi: | Səhiyyə Nazirliyi | 2004 — 2008 | Anadangəlmə qüsur və irsi xəstəliklər nəticəsində baş verən uşaq xəstəliklərinin və ölümünün azaldılması. Yeni doğulmuş uşaqların səhhətinin yaxşılaşdırılması |
| | tibbi-genetik məsləhətləşmənin göstəricisi üzrə sitogenetik, biokimyəvi, molekul-genetik tədqiqatların aparılması; | | | |
| | xromosom xəstəliklərinin aşkarlanması üçün hamilə qadınlarda ikinci trimestrdə zərdabda alfa-protein səviyyəsinin təhlili; | | | |
| | inkişafın anadangəlmə qüsurlarının diaqnostikası üçün hamiləliyin 18 — 23 — 24-cü həftələrində hamilələrin ultrasəs müayinəsinin təşkil edilməsi | | | |
| 2.6 | Anadangəlmə və irsi patologiyası olan ailələrin dispanserləşdirilməsinin, uşaq doğumu zamanı perspektiv tibbi-genetik məsləhətləşmənin, inkişafı anadangəlmə qüsurlu uşaqları olan qadınların müayinəsinin təşkil edilməsi | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Anadangəlmə qüsur və irsi xəstəliklər nəticəsində baş verən uşaq xəstəliklərinin və ölümünün azaldılması. Yeni doğulmuş uşaqların səhhətinin yaxşılaşdırılması |
| 2.7 | Hamiləliyin erkən müddətlərində perinatal diaqnostikanın müasir metodlarının tətbiq | Səhiyyə Nazirliyi | daima | Anadangəlmə qüsur və irsi xəstəliklər nəticəsində baş verən uşaq xəstəliklərinin |

| | | | | |
|---|---|---|---|---|
| | edilməsi | | | və ölümünün azaldılması. Yeni doğulmuş uşaqların səhhətinin yaxşılaşdırılması |
| **2.2 Yeni doğulmuş uşaqların sağlamlığının mühafizəsi** | | | | |
| 2.2.1 | Respublikanın şəhər və rayonlarının çoxprofilli xəstəxanalarında ekstragenital patologiyası (hamiləliyin 28-ci həftəsinə qədər) olan hamilə qadınların vaxtında hospitalizasiya edilməsi üçün lazımi şəraitin yaradılması | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Anadangəlmə qüsur və irsi xəstəliklər nəticəsində baş verən uşaq xəstəliklərinin və ölümünün azaldılması. Yeni doğulmuş uşaqların səhhətinin yaxşılaşdırılması |
| 2.2.2 | Hamilə qadınlara, yeni və vaxtından qabaq doğulmuş uşaqlara təxirəsalınmaz yardımın göstərilməsi üçün respublikanın bütün şəhər xəstəxanalarının zəruri avadanlıqlarla təchiz olunması | Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2004 — 2005 | Qadın və uşaqlara təxirəsalınmaz yardımın yaxşılaşdırılması. Perinatal ölümün azaldılması |
| 2.2.3 | Respublika klinik xəstəxanasının nəzdində olan sanitar aviasiyası şöbəsində səyyar neonatoloq briqadasının təşkil edilməsi | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Yeni doğulmuş uşaqların sağlamlığının yaxşılaşdırılması, yeni doğulmuş uşaqlar arasında xəstələnmələrin profilaktikası, uşaq ölümünün azaldılması |
| 2.2.4 | Respublikanın rayon və şəhərlərinin müvafiq tibb müəssisələrində yeni doğulmuş uşaqlar üçün reanimasiya və intensiv terapiya şöbələrinin yaradılması və inkişaf etdirilməsi | Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2004 — 2008 | Yeni doğulmuş uşaqların sağlamlığının yaxşılaşdırılması, yeni doğulmuş uşaqlar arasında xəstələnmələrin profilaktikası, uşaq ölümünün azaldılması |
| 2.2.5 | Respublikanın şəhər və rayonlarının uşaq xəstəxanaları nəzdində yeni və vaxtından qabaq doğulmuş uşaqlar üçün şöbə şəbəkələrinin | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Yeni doğulmuş uşaqların sağlamlıqlarının yaxşılaşdırılması, yeni doğulmuş uşaqlar arasında |

| | | | | |
|---|---|---|---|---|
| | (onlara olan tələbatın tam ödənilməsinə qədər) yaradılmasının inkişafı və analar üçün xüsusi otaqların ayrılması | | | xəstələnmələrin profilaktikası, uşaq ölümünün azaldılması |
| 2.2.6 | Doğum evlərində analara "Uşağın sağlamlıq pasportu"nun və "Analara məsləhət kitabçası"nın verilməsinin təmin edilməsi | Səhiyyə Nazirliyi | 2004-cü ildən başlayaraq | Təbii qidalanmanın qorunub saxlanılması və uşaqların sağlamlığının yaxşılaşdırılması |
| **2.3. Erkən yaşlı uşaqların sağlamlığının mühafizəsi** | | | | |
| 2.3.1 | İlk növbədə çoxuşaqlı ailələrə xidmət edilməsi, erkən yaşlı uşaqlara ev şəraitində bütün sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi üçün pediatrik sahələrə əlavə sahə tibb bacıları vəzifələrinin daxil edilməsi | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Erkən yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsi |
| 2.3.2 | Bütün uşaq ambulator-poliklinika müəssisələrində sağlam uşaq kabinetlərinin təşkili | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Erkən yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsi |
| 2.3.3 | Uşaq ambulator-poliklinika müəssisələrinin iş praktikasına vahid şəkilə salınmış və ailənin maddi-məişət şəraiti, hamiləliyin keçməsi, yeni doğulan dövrdən başlayaraq risk qrupunun ayrılması haqqında məlumat daxil olmaqla, uşağın inkişaf tarixi formasının tətbiq edilməsi | Səhiyyə Nazirliyi | 2004 | Erkən yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsi |
| 2.3.4 | Uşaq poliklinikalarının iş praktikasına ağciyər, qastroenteroloji, böyrək və s. xəstəliklərin inkişafı üzrə risk qrupu uşaqlarının təbəqələşdirilmiş | Səhiyyə Nazirliyi | 2004-cü ildən başlayaraq | Erkən yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsi |

| | | | | |
|---|---|---|---|---|
| | müayinəsinin tətbiq edilməsi | | | |
| 2.3.5 | Avtomatlaşdırılmış məlumat-idarəedici dispanser müayinə sisteminin işlənib hazırlanması və Bakı şəhəri uşaq tibbi-profilaktika müəssisələrinin iş praktikasına tətbiq edilməsi | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Erkən yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsi |
| 2.3.6 | Yay aylarında bronx-ciyər patologiyası olan uşaqların mövsümi reabilitasiyasının təşkil edilməsi | Səhiyyə Nazirliyi | daima | Erkən yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsi |
| 2.3.7 | Uşaq poliklinikalarında bərpaedici müalicə kabinetləri şəbəkələrinin inkişaf etdirilməsi, bronx-ciyər patologiyası olan uşaqların fizioterapevtik və balneoloji müalicəsi, müalicəvi idman və s. bərpaedici müalicə üsullarının və eləcə də fon xəstəliklərinin profilaktikası və müalicəsinin inkişaf etdirilməsi | Səhiyyə Nazirliyi | daima | Erkən yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsi |
| 2.3.8 | Pulmonoloji və allerqoloji profilli uşaq sanatoriyaları şəbəkəsinin respublikanın tələbatına uyğun genişləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi | Səhiyyə Nazirliyi | daima | Erkən yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsi |
| 2.3.9 | Bronx-ciyər patologiyası risk qrupundan olan və kəskin pnevmoniya keçirmiş uşaqlar üçün ərazi uşaq poliklinikalarında məsləhət xarakterli qəbulların təşkil edilməsi | Səhiyyə Nazirliyi | daima | Erkən yaşlı uşaqların sağlamlığının möhkəmləndirilməsi |
| 2.3.10 | Uşaq poliklinikalarında | Səhiyyə Nazirliyi | 2004 — | Uşaqların |

| | | | | |
|---|---|---|---|---|
| | “Evlərdə uşaqlara təxirəsalınmaz tibbi yardım məntəqələrinin” təşkil edilməsi | | 2005 | təxirəsalınmaz vəziyyətlərində ölüm nəticələrinin qarşısının alınması |
| 2.3.11 | Ünvanlılıq prinsipi əsasında yoxsul ailələrdə bir və iki yaşlı uşaqlar üçün pulsuz uşaq qidasının verilməsinin təmin edilməsi | Azərbaycan Respublikasının Nazirlər Kabineti (bundan sonra — Nazirlər Kabineti), Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyi (bundan sonra — *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyi) | daima | Uşaqların sağlamlığı və harmonik inkişafı üçün optimal şəraiti təmin etmək məqsədilə sağlam və xəstə uşaqların qidalanmasının təşkilinin yaxşılaşdırılması |
| 2.3.12 | Bakı şəhərində uşaq qidasının istehsalı üzrə sənaye müəssisəsinin tikilməsi və istifadəyə verilməsi | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Səhiyyə Nazirliyi | 2004 — 2005 | Uşaqların sağlamlığı və harmonik inkişafı üçün optimal şəraiti təmin etmək məqsədilə sağlam və xəstə uşaqların qidalanmasının təşkilinin yaxşılaşdırılması |
| 2.3.13 | Məktəbəqədər müəssisələrdə uşaq qidasının tərkibinin yaxşılaşdırılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi | 2004 — 2005 | Uşaqların sağlamlığı və harmonik inkişafı üçün optimal şəraiti təmin etmək məqsədilə sağlam və xəstə uşaqların qidalanmasının təşkilinin yaxşılaşdırılması |
| 2.3.14 | Uşaq təhsil-tərbiyə müəssisələrinə gedən uşaqların qidalanmasının, sağlamlığının möhkəmləndirilməsinə və xəstələnmə hallarının azaldılmasına yönəldilən digər sağlamlaşdırıcı tədbirlərin təşkilinə nəzarətin gücləndirilməsi | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyi | daima | Uşaqların sağlamlığının möhkəmləndirilməsi |
| 2.3.15 | Şagirdlərin travmatizminin | Səhiyyə Nazirliyi, Təhsil | daima | Uşaqların sağlamlığının |

| | | | | |
|---|---|---|---|---|
| | profilaktikasına və vaxtında tibbi müayinənin keçirilməsinə xüsusi diqqət yetirmək şərtilə, onların peşə hazırlığı prosesində sağlamlıqlarının, həyatının və əməyinin mühafizəsinin, gigiyenik tərbiyəsinin təmin olunmasına istiqamətləndirilmiş tədbirlərin yerlərdə həyata keçirilməsinə tibbi nəzarətin gücləndirilməsi | Nazirliyi | | möhkəmləndirilməsi |
| **2.4. Ailənin sanitar mədəniyyətinin və gigiyenik tərbiyəsinin yüksəldilməsi** | | | | |
| 2.4.1 | Qadın məsləhətxanaları nəzdində “Atalar məktəbi”nin təşkil edilməsi | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Uşaqların səhhətinin möhkəmləndirilməsi və qorunması məsələlərində ailə mədəniyyətinin yüksəldilməsi |
| 2.4.2 | Sağlam həyat tərzi, uşaqlara qulluq, səmərəli qidalanma, uşaqların əmizdirilməsi və səhhətinin möhkəmləndirilməsi üzrə broşüra və plakat şəklində, sanitar-maarifçilik materiallarının işlənib hazırlanması və nəşr edilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Respublikasının *Gənclər və İdman* Nazirliyi (bundan sonra — Gənclər, İdman və Turizm Nazirliyi), kütləvi informasiya vasitələri | daima | Uşaqların səhhətinin möhkəmləndirilməsi və qorunması məsələlərində ailə mədəniyyətinin yüksəldilməsi |
| ***3. Gənc ailə və nikahların davamlılığının artırılması*** | | | | |
| **3.1. Gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması** | | | | |
| 3.1.1 | Mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan gənc ailələrə, xüsusilə sərhədyanı bölgələrdə, güzəştli kreditlərin verilməsi mexanizminin yaradılması və həyata keçirilməsi | *İqtisadiyyat* ~~*və Sənaye*~~ Nazirliyi, *Gənclər və İdman* Nazirliyi, *Mərkəzi Bank*, yerli icra hakimiyyəti orqanları | 2004-cü ildən başlayaraq | Gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması |
| 3.1.2 | Şəxsi mənzil tikilişi | yerli icra | 2004 — | Gənc ailələrin mənzil |

| | | | | |
|---|---|---|---|---|
| | üçün kənd yerlərində gənc ailələrə torpaq sahələrinin verilməsinin təmin edilməsi | hakimiyyəti orqanları və bələdiyyələri cəlb etməklə | 2008 | şəraitinin yaxşılaşdırılması |
| 3.1.3 | Ali və orta ixtisas məktəblərinin yataqxanalarında ailəli tələbələrin ayrı otaqla təmin edilməsi | Təhsil Nazirliyi | 2004 — 2008 | Gənc tələbə ailələrinin möhkəmləndirilməsi |
| 3.1.4 | Çadır şəhərciklərində və yataqxanalarda müvəqqəti məskunlaşmış, ailə qurmaq istəyən gənclərin ayrıca yaşayış sahəsi ilə təmin edilmələri üçün tədbirlərin görülməsi | yerli icra hakimiyyəti orqanları | mütəmadi | Gənc ailələrin mənzil şəraitinin yaxşılaşdırılması |
| **3.2. Gənc ailələrin maddi vəziyyətinin yaxşılaşdırılması və onların istirahət və asudə vaxtının təşkili** | | | | |
| 3.2.1 | Unvanlılıq prinsipi əsasında yoxsul ailələr üçün aşağıdakı yardımların təşkili: | Nazirlər Kabineti, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra — Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) | 2004-cü ildən başlayaraq | Yoxsulluğun səviyyəsinin azaldılması, gənc ailələrin inkişafı |
| | uşağa lazım olan ləvazimatın alınması üçün analara uşaq doğulduqdan sonra birdəfəlik müavinətin verilməsi; | | | |
| | uşaqlara idman forması və məktəb ləvazimatlarının alınması üçün valideynlərdən birinə müavinətin verilməsi; | | | |
| | abonement xidməti əsasında üç yaşına qədər uşaqların uşaq qidası ilə təmin edilməsi | | | |
| 3.2.2 | Şəhər və rayonların | *Gənclər və* | mütəmadi | Uşaqlı gənc ailələrin |

| | | | | |
|---|---|---|---|---|
| | idman təqvimlərinə gənc ailələr üçün idman-sağlamlıq tədbirlərinin həyata keçirilməsinin daxil edilməsi | *İdman* Nazirliyi, yerli icra hakimiyyəti orqanları | | sağlamlığının möhkəmləndirilməsi və istirahətinin səmərəli təşkili |
| 3.2.3 | *Məktəbəqədər təhsil* müəssisələrində zəif və tez-tez xəstələnən uşaqların sağlamlığının möhkəmləndirilməsi məqsədilə sanator tipli bağçaların yaradılması. Mədəniyyət və istirahət parklarında ailə istirahəti günlərinin keçirilməsi | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları, qeyri-hökumət təşkilatları | mütəmadi | Uşaqlı gənc ailələrin sağlamlığının möhkəmləndirilməsi və istirahətinin səmərəli təşkili |
| 3.2.4 | VVADQ orqanları və yerli icra hakimiyyətlərinin nümayəndələri tərəfindən nikahın bağlanması ilə əlaqədar müraciət edən şəxslərə onların hüquq və vəzifələrinin izah olunması, *ümumi təhsil müəssisələrində* müvafiq mühazirələrin təşkil olunması | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2004-cü ildən başlayaraq | Sağlamlığın yaxşılaşdırılması. Gənclərin ailə həyatına hazırlanması |
| 3.2.5 | Gənclərin ailə həyatına hazırlanmasına dair bukletlərin hazırlanması, bu sahə ilə bağlı fakültativ fənnin ali və orta ixtisas məktəblərinin tədris proqramında tətbiqi | Gənclər, İdman və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi | 2004 — 2005 | Gənclərin ailə həyatı haqqında biliklərinin genişləndirilməsi |
| 3.2.6 | Demoqrafçıların, iqtisadçıların, hüquqşünasların, həkimlərin və s. iştirakı ilə ailə və nikah mövzusunda müzakirələrin təşkil edilməsi | Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, *«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti* | mütəmadi | Gənclərin ailə həyatı haqqında biliklərinin genişləndirilməsi |
| 3.2.7 | Boşanmaların səbəb və dinamikasının uçot və təhlilinin təkmilləşdirilməsi | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | 2004 | Gənclərin ailə həyatı haqqında biliklərinin genişləndirilməsi |

| | | | | |
|---|---|---|---|---|
| 3.2.8 | Ailənin formalaşmasına həsr olunmuş verilişlərin təşkili | *«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti* | mütəmadi | Gənclərin ailə həyatı haqqında biliklərinin genişləndirilməsi |
| ***4. Qadınların əmək və məişət şəraitinin yaxşılaşdırılması*** | | | | |
| **Qadının analıq, ailə-məişət və peşə vəzifələrinin harmonik uzlaşmasının təmin edilməsi** | | | | |
| 4.1 | Sanatoriyalarda və ailə istirahət pansionatlarında uşaqların valideynlərlə müalicəsini təmin etmək üçün müvafiq tədbirlərin həyata keçirilməsi | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (bundan sonra — Həmkarlar İttifaqları Konfederasiyası) cəlb etməklə, *İqtisadiyyat* ~~*və Sənaye*~~ Nazirliyi, *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi* | daima | İşləyən qadınların və anaların uşaqlarının sağlamlığının yaxşılaşdırılması |
| 4.2 | İş prosesinin ağırlığı və gərginliyi, həmçinin qadınların yaş xüsusiyyətləri nəzərə alınmaqla, cari və ilkin sanitar nəzarətinə dair normativ-metodiki sənədlərin hazırlanması və təkmilləşdirilməsi | Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2004 — 2005 | İşləyən qadınların əmək şəraitinin, onların psixofizioloji xüsusiyyətlərinə uyğunlaşmasının təmin edilməsi |
| 4.3 | Əməyin mühafizəsi, sanitar-sağlamlıq və əmək şəraitinin yaxşılaşdırılmasına, o cümlədən ağır fiziki işlərin, qadınların sağlamlığı üçün təhlükəli digər işlərin tədricən ləğv edilməsinə, istehsalatda travmatizmin və peşə xəstəliklərinin azaldılmasına yönəldilmiş tədbirlərin hazırlanması və həyata keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Həmkarlar İttifaqları Konfederasiyası cəlb edilməklə | 2004 | Zərərli əmək şəraiti olan işlərdə nəzarətin gücləndirilməsi və qadınların belə işlərdən azadolma templərinin artırılması və başqa işlə təmin edilməsi |
| 4.4 | İşaxtaran və işsiz | Əmək və | daima | Qadınlar arasında |

| | | | | |
|---|---|---|---|---|
| | qadınlar üçün peşə hazırlığı və yenidən hazırlıq işinin yaxşılaşdırılması | Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, | | işsizlik səviyyəsinin azaldılması |
| 4.5 | Elmi-texniki tərəqqinin tələblərinə uyğun olaraq, qadın kadrların fasiləsiz peşə artımı sisteminin tətbiq edilməsi, onların peşə hazırlığı metodlarının təkmilləşdirilməsi | Təhsil Nazirliyi | daima | İşçi qadınların peşə səviyyəsinin artırılması |
| ***5. Əhalinin sağlamlığının möhkəmləndirilməsi və ömür müddətinin artırılması*** | | | | |
| **5.1. Əhalinin ömür müddətinin artırılması, əmək aktivliyi müddətinin uzadılması** | | | | |
| 5.1.1 | İstehsalat sahələri üzrə istehsalat travmatizminin vəziyyətinin öyrənilməsi və onun azaldılmasına dair müvafiq tövsiyələrin hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Həmkarlar İttifaqları Konfederasiyası cəlb edilməklə | 2004 — 2005 | İstehsalat travmatizminin azaldılması |
| 5.1.2 | Gənclər arasında alkoqolizm, narkomaniya və toksikomaniyanın profilaktikası məsələlərinə dair tədbirlər planının hazırlanması və həyata keçirilməsi. Təhsil müəssisələrində müvafiq kursun tədris olunmasının təmin edilməsi | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (bundan sonra — Daxili İşlər Nazirliyi) | 2004 — 2005 | Alkoqolizm, narkomaniya və toksikomaniyanın səviyyəsinin azaldılması |
| 5.1.3 | Respublikanın məktəblərində, mütəmadi olaraq yol nəqliyyat hadisələrinin profilaktikası üzrə dərslərin keçirilməsinin təmin edilməsi | Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi | 2004 — 2008 | Yol-nəqliyyat qəzalarının səviyyəsinin azaldılması |
| 5.1.4 | Təcili yardım stansiyalarının müasir rabitə vasitələri, avtomatlaşdırılmış | Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları | 2004 — 2005 | Əhalinin sağlamlığının qorunması |

| | | | | |
|---|---|---|---|---|
| | idarəetmə sistemi ilə təchiz edilməsi | | | |
| 5.1.5 | Ürək-damar xəstəliklərini yaradan əsas faktorlar barədə əhalinin məlumat səviyyəsinin artırılması məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi | Səhiyyə Nazirliyi, *«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti* | 2004 — 2008 | Xəstələnmə hallarının və ürək-damar xəstəlikləri nəticəsində əlilliyin səviyyəsinin azaldılması |
| 5.1.6 | İstehsalat amillərinin sağlamlığa mənfi təsirinin azaldılmasına dair elmi cəhətdən əsaslandırılmış tədbirlərin hazırlanması | Səhiyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2004 — 2005 | Xəstələnmə hallarının və ürək-damar xəstəlikləri nəticəsində əlilliyin səviyyəsinin azaldılması |
| 5.1.7 | Ölkə əhalisi arasında ürəyin işemik xəstəliyinin ilkin və hipertonik xəstəliyinin təkrar profilaktikasına dair tədbirlərin hazırlanması və həyata keçirilməsi | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Ürək-damar xəstəliklərinin profilaktikası və müalicəsinin yaxşılaşdırılması |
| 5.1.8 | Tibbi müayinə zamanı aşkar edilmiş bütün ürək-damar xəstələrinin dispanser nəzarətinə götürülməsi | Səhiyyə Nazirliyi | mütəmadi | Ürək-damar xəstəliklərinin profilaktikası və müalicəsinin yaxşılaşdırılması |
| 5.1.9 | Onkoloji xəstəliklərin profilaktika üsulları və onları yaradan risk faktorları barədə elmi-publisistik məqalələrin, bukletlərin, plakatların nəşrinin genişləndirilməsi | Səhiyyə Nazirliyi | mütəmadi | Onkoloji xəstəliklərin profilaktikası və risk amilləri haqqında əhalinin məlumatlanmasının yaxşılaşdırılması |
| 5.1.10 | Bədxassəli şişlərin diaqnostikası və müalicəsinin müasir metodlarının işlənib hazırlanması və onkoloji müəssisələrin fəaliyyətinə tətbiq edilməsi | Səhiyyə Nazirliyi | mütəmadi | Əhaliyə onkoloji yardım fəaliyyətinin yaxşılaşdırılması, onkoloji xəstələnmə və ölüm sayı göstəricilərinin stabilləşməsi |
| 5.1.11 | Bütün əhalinin dispanserləşdirilməsi zamanı tənəffüs orqanı xəstəliklərinin yüksək risk qrupunun | Səhiyyə Nazirliyi | mütəmadi | Pulmonoloji xəstələrə tibbi xidmətin yaxşılaşdırılması |

| | | | | |
|---|---|---|---|---|
| | aşkarlanmasına xüsusi diqqət yetirilməsi. Həmin qrupların dispanser müayinəsinin təmin edilməsi, zəruri müalicəvi-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi | | | |
| 5.1.12 | VİÇ infeksiyasının profilaktikası üzrə milli proqramın hər il monitorinqinin həyata keçirilməsi | Səhiyyə Nazirliyi | mütəmadi | VİÇ infeksiyasının yayılmasının qarşısının alınması |
| 5.1.13 | Poliklinika və xəstəxanaların bərpaedici müalicə şöbələrinin (kabinetlərinin) və eləcə də pulmanoloji xəstəxanaların tibbi reabilitasiya şöbələrinin geniş istifadə edilməsi | Səhiyyə Nazirliyi | mütəmadi | Pulmanoloji xəstələrə tibbi xidmətin yaxşılaşdırılması |
| 5.1.14 | Respublikanın içməli su təchizatı sisteminin və sanitar-mühafizə zonalarının inkişafı üzrə müvafiq tədbirlərin həyata keçirilməsi | *İqtisadiyyat ~~və Sənaye~~* Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Tikinti və Arxitektura Komitəsi, Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra — Ekologiya və Təbii Sərvətlər Nazirliyi), *Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti*, “Azərsu” Səhmdar Cəmiyyəti | 2004-cü ildən başlayaraq | Su təchizatı sisteminin təkmilləşdirilməsi. Qida məhsulları, içməli su, açıq su hövzələri və xalq təsərrüfatı obyektlərinin sanitar bakterioloji nəzarətinin gücləndirilməsi |
| 5.1.15 | Əhalinin şəxsi gigiyena və eləcə də yoluxucu | Səhiyyə Nazirliyi | mütəmadi | Əhalinin sanitar mədəniyyətinin |

| | | | | |
|---|---|---|---|---|
| | xəstəliklərin, bağırsaq infeksiyalarının qarşısının alınmasına yönəldilmiş digər tədbirlər barədə geniş məlumatlandırılma işinin təşkili | | | yüksəldilməsi və yoluxucu xəstəliklərə yoluxmaların azaldılması və profilaktikası |
| 5.1.16 | Epidemioloji monitorinqin avtomatlaşdırılmış sisteminin tətbiq edilməsi | Səhiyyə Nazirliyi | 2004 — 2005 | Nəzarət altında olan ərazilərdə epidemioloji fəlakətin başlanğıcı haqda vaxtında məlumatlandırma |
